**AZƏRBAYCAN RESPUBLİKASININ QİDA TƏHLÜKƏSİZLİYİ AGENTLİYİ**

**Q Ə R A R**

**№**344/3-9-5/2024

**Bakı şəhəri** "03" iyun 2024-cü il

**Karantin tətbiq edilən zərərli orqanizm aşkar edilmiş soğan və kartofçuluq təsərrüfatlarında bitki mühafizəsi tədbirlərinin görülməsi haqqında**

Azərbaycan Respublikası Qida Təhlükəsizliyi Agentliyinin (bundan sonra – Agentlik) Qarabağ, Lənkəran-Astara və Qazax-Tovuz regional bölmələrinin Bitki sağlamlığı və fitosanitar nəzarəti sektorunun əməkdaşları tərəfindən Ağdam rayonunun Ergi kəndində yerləşən fiziki şəxslər Rüstəmov Elxan Vəli oğluna (8 ha), Quliyev Vüqar Qaryağdı oğluna (8 ha), Ağcabədi rayonunun Harami düzündə yerləşən fiziki şəxs Rüstəmov Osman Sahib oğluna (17 ha) məxsus soğan təsərrüfatlarında, Cəlilabad rayonunun Maşlıq kəndində yerləşən fiziki şəxslər Məhərrəmov Rəşad Rafiq oğluna (0.15 ha), Mehtiyev Camal Sahib oğluna (0.15 ha), Fətullayev İsaxan Abı oğluna (0.2 ha), Musayev Eldar Zabit oğluna (0.14 ha), Bədəlov Xanlar Hüseynqulu oğluna (0.4 ha), Bədəlov Ayyət Qulam oğluna (0.15 ha), Muradov Telman Səfər oğluna (0.2 ha), Qubadov Əlihüseyn Əyyar oğluna (0.3 ha), Musayev Elxan Zabit oğluna (0.25 ha), Vəliyev Taleh Məsləhət oğluna (0.7 ha), Qurbanov Rövşən Əyyar oğluna (0.42 ha), Adıgözəlov Şahlar Yavər oğluna (0.45 ha), Rəhimov Asif Novruz oğluna (0.3 ha), Musayev İlqar Soltan oğluna (0.5 ha), Nəsirov Ceyhun Əlisahib oğluna (0.35 ha), Bədəlov Nazim Lətif oğluna (0.5 ha), Şəmkir rayonunun Sabirkənd kəndində yerləşən fiziki şəxslər Həsənov Namaz Həmzə oğluna (0.15 ha), Kərimov Şəmistan Aslan oğluna (0.12 ha), Hacıyev Siyavuş Aslan oğluna (0.27 ha), İsmayılov Fərhad Cəbrayıl oğluna (0.06 ha), Hüseynov Məhəmmədəli Qəhrəman oğluna (0.06 ha), Sadıqova Cəmalə İsmayıl qızına (0.08 ha), Atakişiyeva Güllü Nurəddin qızına (0.09 ha), Abdullayev Vüsal Cümşüd oğluna (0.06 ha), Bayramov Bayram Zaman oğluna (0.25 ha), Allahverdiyev Rəşad Arif oğluna (0.075 ha), Alırzayev Elburus Mirzə oğluna (0.06 ha), Eyyubov Aslan Mustafa oğluna (0.3 ha), İsgəndərov Azər Məsdan oğluna (0.25 ha), Sadıqova Qənirə Hümmət qızına (0.12 ha), Heydərli Elşad Elmar oğluna (0.22 ha), İsmayılov Hafiz Səfər oğluna (0.1 ha), Məmmədov Zamir Əbülfət oğluna (0.15 ha) və Musayev Ramin Rafiq oğluna (0.23 ha) məxsus kartofçuluq təsərrüfatlarında fitosanitar müşahidələr aparılmış, götürülmüş torpaq nümunələri laborator müayinələrə cəlb edilmişdir. Laborator ekspertizanın nəticələrinə uyğun olaraq, 2024-cü il 11 mart tarixli AZ-20111042/LAB03-24001-T-001 nömrəli, 2024-cü il 15 aprel tarixli 16NEFA6/LAB03-24005-T-005 nömrəli, 2024-cü il 30 aprel tarixli AZ-20111038/LAB03-24001-T-001 nömrəli, 2024-cü il 26 aprel tarixli 4PWVN3W/LAB16-24002 nömrəli, 1LDM0SX/LAB16-24001 nömrəli, 4PWVN3W/LAB16-24001 nömrəli, 11ENN3Q/LAB16-24002 nömrəli, 11ENN3Q/LAB16-24002 nömrəli, 1F5NM0E/LAB03-24002 nömrəli, 4ZQ9TE7/LAB16-24002 nömrəli,

4JFNPDJ/LAB16-24002 nömrəli, 2ZSN2ND/LAB16-24003 nömrəli, 252SVTG/LAB16-24002 nömrəli, 2024-cü il 2 may tarixli 4X8S97N/LAB03-24002 nömrəli, 5CQUYB9/LAB03-24002 nömrəli, 5N5JVJM/LAB03-24002 nömrəli, 5EQK2L6/LAB03-24002 nömrəli, 4L1V4KL/LAB03-24002 nömrəli, 3AWC9NS/LAB03-24002 nömrəli, 0X0EJ8X/LAB03-24002 nömrəli, 5HMZSJJ/LAB03-24002 nömrəli, 2024-cü il 15 aprel tarixli 6FDBKS8/LAB03-24002 nömrəli, 2YVH2XJ/LAB03-24002 nömrəli, 3EJU2Z9/LAB03-24002 nömrəli, 2024-cü il 26 aprel tarixli 5E9QUXL/LAB03-24002 nömrəli, 4TX776W/LAB03-24002 nömrəli, 12ZUGRC/LAB03-24002 nömrəli, 4MWLWU7/LAB03-24002 nömrəli, 2CJAWEJ/LAB03-24002 nömrəli, 1GW2WTZ/LAB03-24002 nömrəli, 8FQWTRE/LAB03-24002 nömrəli, 1LMZBHS/LAB03-24002 nömrəli, 5DFTCGE/LAB03-24001 nömrəli, 59FT3KP/LAB03-24002 nömrəli, 2024-cü il 2 may tarixli 59FUQ1V/LAB03-24002 nömrəli, 68H1ETE/LAB03-24002 nömrəli, 3EXMESK/LAB03-24002 nömrəli, 6KVPM28/LAB03-24002 nömrəli sınaq protokollarına əsasən, götürülən nümunələrdə karantin tətbiq edilən qızılı kartof nematodunun (*Globodera rostochiensis*) mövcudluğu təsdiqlənmişdir.

Qeyd olunanlara əsasən, bitki və bitkiçilik məhsullarında zərərli orqanizmlərin kütləvi yayılmasının qarşısının alınmasına, xəstəliklərin aradan qaldırılmasına, məhsul itkisinə yol verilməməsinə, ətraf mühitin və əhalinin sağlamlığının qorunmasına yönəldilmiş bitki mühafizəsi tədbirlərinin həyata keçirilməsi məqsədilə, Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"nin 3.0.33-12-ci yarımbəndinə uyğun olaraq

**Qərara alıram:**

**1.** Agentliyin Qarabağ, Lənkəran-Astara və Qazax-Tovuz regional bölmələrinin Bitki sağlamlığı və fitosanitar nəzarəti sektorunun əməkdaşları tərəfindən, uyğun olaraq Ağdam, Ağcabədi, Cəlilabad və Şəmkir rayonları ərazisində qızılı kartof nematodu ilə sirayətlənmiş ərazilərin sərhədləri müəyyən edilsin.

**2.** Ağdam rayonunun Ergi kəndində yerləşən fiziki şəxslər Rüstəmov Elxan Vəli oğluna (8 ha), Quliyev Vüqar Qaryağdı oğluna (8 ha), Ağcabədi rayonunun Harami düzündə yerləşən fiziki şəxs Rüstəmov Osman Sahib oğluna (17 ha) məxsus soğan təsərrüfatlarında, Cəlilabad rayonunun Maşlıq kəndində yerləşən fiziki şəxslər Məhərrəmov Rəşad Rafiq oğluna (0.15 ha), Mehtiyev Camal Sahib oğluna (0.15 ha), Fətullayev İsaxan Abı oğluna (0.2 ha), Musayev Eldar Zabit oğluna (0.14 ha), Bədəlov Xanlar Hüseynqulu oğluna (0.4 ha), Bədəlov Ayyət Qulam oğluna (0.15 ha), Muradov Telman Səfər oğluna (0.2 ha), Qubadov Əlihüseyn Əyyar oğluna (0.3 ha), Musayev Elxan Zabit oğluna (0.25 ha), Vəliyev Taleh Məsləhət oğluna (0.7 ha), Qurbanov Rövşən Əyyar oğluna (0.42 ha), Adıgözəlov Şahlar Yavər oğluna (0.45 ha), Rəhimov Asif Novruz oğluna (0.3 ha), Musayev İlqar Soltan oğluna (0.5 ha), Nəsirov Ceyhun Əlisahib oğluna (0.35 ha), Bədəlov Nazim Lətif oğluna (0.5 ha), Şəmkir rayonunun Sabirkənd kəndində yerləşən fiziki şəxslər Həsənov Namaz Həmzə oğluna (0.15 ha), Kərimov Şəmistan Aslan oğluna (0.12 ha), Hacıyev Siyavuş Aslan oğluna (0.27 ha), İsmayılov Fərhad Cəbrayıl oğluna (0.06 ha), Hüseynov Məhəmmədəli Qəhrəman oğluna (0.06 ha), Sadıqova Cəmalə İsmayıl qızına (0.08 ha), Atakişiyeva Güllü Nurəddin qızına (0.09 ha), Abdullayev Vüsal Cümşüd oğluna (0.06 ha), Bayramov Bayram Zaman oğluna (0.25 ha), Allahverdiyev Rəşad Arif oğluna (0.075 ha), Alırzayev Elburus Mirzə oğluna (0.06 ha), Eyyubov Aslan Mustafa oğluna (0.3 ha), İsgəndərov Azər Məsdan oğluna (0.25 ha), Sadıqova Qənirə Hümmət qızına (0.12 ha), Heydərli Elşad Elmar oğluna (0.22 ha), İsmayılov Hafiz Səfər oğluna (0.1 ha), Məmmədov Zamir Əbülfət oğluna (0.15 ha) və Musayev Ramin Rafiq oğluna (0.23 ha) məxsus kartofçuluq təsərrüfatları (bundan sonra – sirayətlənmiş sahələr) ən azı üç il ardıcıl olaraq Milli Monitorinq Planına daxil edilsin

və digər zərərli orqanizmlərlə yanaşı, qızılı kartof nematoduna görə də laborator müayinələrə cəlb edilsin.

**3.** Sirayətlənmiş sahələrdə istehsal edilmiş kartof məhsulunun toxum materialı kimi istifadəsinə icazə verilməsin.

**4.** Sirayətlənmiş sahələrdə ən azı üç il müddətində qızılı kartof nematodunun əsas sahib bitkisi olan kartofun və badımcançiçəklilər fəsiləsinə aid digər bitkilərin (pomidor, badımcan) əkilməməsi təşviq edilsin və buğda, yonca, lobya və qarğıdalı əkilməklə növbəli əkin tətbiq edilsin.

**5.** Sirayətlənmiş sahələrdə kartofdan başqa bitkinin əkilməsi uyğun olmadığı təqdirdə yalnız ərzaqlıq kartof əkini həyata keçirilsin.

**6.** Sirayətlənmiş sahələrdə təsərrüfat işləri zamanı istifadə edilən bütün avadanlıqlar, alətlər, qablaşdırma vasitələri və bu sahələrdə istehsal edilmiş kartofun saxlandığı anbarlar dərhal və hərtərəfli təmizlənsin və dezinfeksiya edilsin.

**7.** Sirayətlənmiş sahələrdə istifadə edilən texnika və alətlər yalnız təmizlənərək dezinfeksiya edildikdən sonra digər sahələrdə istifadəsinə icazə verilsin.

**8.** Nematod sistasının su vasitəsilə yayıla bilməsi nəzərə alınaraq, digər sahələrin suvarılması üçün istifadə edilən su kanallarının sirayətlənmiş sahələrdən keçməməsi, sahələrin və su kanallarının ətrafının alaq otlarından, xüsusən də qara quşüzümü (*Solanum nigrum* L.) və gicitkəndən (*Urtica dioica* L.), o cümlədən əvvəlki əkindən torpaqda qalan kartof yumrularından təmizlənməsi təmin edilsin.

**9.** Sirayətlənmiş sahələrdən torpağın kənara çıxarılmasına icazə verilməsin.

**10.** Sirayətlənmiş sahələrin ətrafında 15-20 m radiusda ərazi bufer zona olaraq müəyyənləşdirilsin, sirayətlənmiş sahə üçün tətbiq edilən tədbirlər bu zonada olan əkin sahələrinə də tətbiq edilsin.

**11.** Sınaq protokollarında qızılı kartof nematodunun mövcudluğu təsdiqlənən təsərrüfatlarda istehsal olunan kartof məhsulunun qeyd olunan zərərli orqanizmin rast gəlinmədiyi digər ərazilərə daşınması məhdudlaşdırılsın, ixrac zamanı isə idxalçı ölkələrin fitosanitar idxal tələbi nəzərə alınmaqla risk əsaslı yanaşma tətbiq edilsin.

**12.** Bu Qərarın icrasına nəzarət Agentliyin Qarabağ, Lənkəran-Astara və Qazax-Tovuz regional bölmələri tərəfindən həyata keçirilsin.

**13.** Bu Qərarın icrasından yayınan şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada məsuliyyət daşıyırlar.

**14.** Agentlik Aparatının Bitki sağlamlığı və bioloji təhlükəsizlik şöbəsi bu Qərarın aidiyyəti üzrə göndərilməsini təmin etsin.

**Bitki sağlamlığı və bioloji təhlükəsizlik**
**şöbəsinin müdiri,**
**Respublikanın baş dövlət fitosanitar müfəttişi** **Taleh Şəmiyev**

Baş Dövlət Fitosanitar Müfəttişi
Chief Phytosanitary Officer